**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRKİYƏ VƏ FRANSA ARASINDA SİYASİ MÜNASİBƏTLƏR

İxtisas: 5901.01 – "Beynəlxalq münasibətlər"

Elm sahəsi: Siyasi elmlər

**İddiaçı: Dadaşova Aynur Sultan qızı**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2021**

Dissertasiya işi Bakı Slavyan Universitetinin "Diplomatiya və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir

Elmi rəhbər: fəlsəfə doktoru, professor
**Etibar Əli oğlu Nəcəfov**

Rəsmi opponentlər : siyasi elmlər doktoru, professor
**Hadi Musa oğlu Rəcəbli**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Afət Ağaəli qızı Səfərova**

siyasi elmlər üzrə fəlsəfə doktoru,
**Səyavuş Kamran oğlu Qasımov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Atestasiya Komiyasının Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: akademik
________________ **Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru elmlər, prof. əv.
________________ **Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, prof. əv.
________________ **Adil Mirabdulla oğlu Mirabdullayev**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin rəsmi hesabatında qeyd olunur ki, Fransa Türkiyənin beş əsrlik tarixə malik müttəfiqdir. Türkiyənin mühüm iqtisadi və ticarət ortağı olan Fransada 650 min türk icması yaşayır. Türk – fransız diplomatik münasibətlərinin tarixi 1483-cü ilə təsadüf edir. Sultan II Bəyazid Fransada həbs olunan qardaşı Cem haqqında məlumat almaq üçün Limni adasına XI Lyudoviqə səfiri göndərdi. Osmanlı imperiyasındakı ilk rəsmi Fransa səfiri olan Jan de la Forest, 1535-ci ildə iş karyerasına başladı. 1535-ci ildə Fransa kapitulyasiya hüququ aldıqdan sonra Osmanlı imperiyasında ən imtiyazlı dövlət oldu. 1721-ci ildə Mehmet Çələbi Osmanlı imperiyasının Fransadakı ilk səfiri oldu. 1921-ci il oktyabrın 20-də, İstiqlal müharibəsinin sonunda Ankarada imzalanan ikitərəfli müqavilə ilə Türkiyə ilə Fransa arasındakı müasir əlaqələrin əsası qoyuldu[1].

Göründüyü kimi, Türkiyə-Fransa siyasi münasibətləri dərin tarixi köklərə və özünəməxsus xüsusiyyətlərə malikdir.

Türkiyə ilə Fransa arasında XXI əsrin əvvəllərini əhatə edən siyasi münasibətlər mövzusunun araşdırılması politologiya və beynəlxalq münasibətlər elminin aktual məsələlərindən biri sayılır. Bu nöqteyi – nəzərdən Türkiyə-Fransa siyasi münasibətlərinin dərindən və hərtərəfli öyrənilməsi çox aktualdır.Türkiyə-Fransa siyasi münasibətlərində baş verən müasir tendensiyaların elmi təhlilinə ehtiyac vardır.

Tədqiq edilən mövzunun aktuallığı ondadır ki, qloballaşan dünyada Türkiyə ilə Fransa arasında ikitərəfli münasibətlərin dinamikasına təsir edən amillər, tərəflərin qlobal və regional, iqtisadi və siyasi, cari və perspektiv maraqlarını qarşılıqlı əlaqələrdə nəzərə alan yeni şərait formalaşmaqdadır. Başqa sözlə, Türkiyə ilə Fransa arasındakı siyasi münasibətlərin inkişafına, Türkiyənin Aİ-yə üzv

---

[1]Türkiye Cumhuriyyeti Dış İşleri Bakanlığı. Türkiye-Fransa İlişkileri /http://www.mfa.gov.tr/turkiye-fransa-siyasi-iliskileri.tr.mfa

olması məsələsində və ermənilərin “soyqırımı” məsələsində Fransanın mövqeyi, Türkiyə və Fransanın Orta Şərq siyasəti və bu dövlətlərin həmin bölgədəki əsas strategiyaları, Fransanın kürd məsələsinə münasibəti, ikitərəfli iqtisadi əlaqələrin dərinləşdirilməsi məsələsində qarşılıqlı maraqlar və bu kimi bir çox siyasi və iqtisadi amillər təsir edir.

Dissertasiya işinin mövzusu həm də buna görə aktualdır ki, keçmişdə olduğu kimi, bu gün də Türkiyə-Fransa siyasi münasibətləri Avropa siyasətində mərkəzi yer tutur. Fransa ilə konstruktiv əməkdaşlıq, Türkiyənin Avropaya iqtisadi və siyasi inteqrasiyası üçün vacib şərtdir. Türkiyə üçün Avropa İttifaqının liderlərindən biri olan Fransanın, birincinin Aİ-yə üzv olması məsələsində mövqeyi həlledici sayılır. Bu məsələ iki ölkə arasında siyasi və iqtisadi münasibətlərin müəyyənləşdirilməsinə böyük təsir göstərir. Belə ki, XXI əsrin əvvəllərində Türkiyə ilə Fransa arasındakı siyasi münasibətlərin inkişafı Türkiyənin Avropa İttifaqına daxil olması məsələsindən çox təsirləndi. Mövcud vəziyyət Türkiyə-Fransa ikitərəfli münasibətlərində gərginlik yaradır və onu çətinləşdirir. Buna görə də Fransa tərəfindən Türkiyənin Avropa İttifaqına üzv olması məsələsi ilə əlaqədar yürüdülən siyasətin, türk-fransız münasibətlərinin mühüm tərkib hissəsi olaraq öyrənilməsi çox aktual olub, elmi-siyasi əhəmiyyət kəsb edir.

Problemə böyük maraq həm də onunla şərtlənir ki, müasir dövrdə Türkiyə-Fransa münasibətlərinin inkişafına mənfi təsir göstərən əsas amillərdən biri, qarşılıqlı əlaqələrdəki əsas problemlərdən biri məhz qondarma “erməni soyqırımı” məsələsidir. Bu gün ermənilərin antitürk siyasəti dünya ictimaiyyəti tərəfindən qondarma “erməni soyqırımı”nın tanıdılmasına yönəldilib, sonrakı addım isə - maddi təzminat tələbi və bu ölkəyə qarşı ərazi iddialarının irəli sürülməsi nəzərdə tutulur. Buna görə də dissertasiya işində aşağıdakı suallara cavab verməyə cəhd edilir: Fransa Türkiyə ilə normal və qarşılıqlı – faydalı iqtisadi münasibətlərini qondarma "erməni soyqırımı"na nədən qurban verir? Uydurma olduğunu bil-bilə qondarma “erməni soyqırımı”na Fransa dövlətinin bu qədər dəstək verməsinə səbəb nədir? Uydurma olduğu, tarixi həqiqətdən daha çox siyasi şantaj mahiyyəti daşıdığı artıq hamıya açıq-aşkar

məlum olan və eyni zamanda Türkiyə üçün həssas mövzu olan bu qondarma "erməni soyqırımı"nı nəyə görə Fransa tanıyır və bu uydurmanı qəbul etməsi üçün Türkiyəyə təzyiqlər edir? Bu, "xristian təəssübkeşliyi"ndən, yoxsa Fransanın geo-siyasi maraqlarından irəli gəlir? Nəyə görə Fransa erməni terrorçularına daha geniş qucaq açmış və daim onların Türkiyə əleyhinə terrorçuluq fəaliyyətinə açıq-aşkar göz yummuşdur? Türkiyə ilə ikitərəfli münasibətlərə ciddi zərbə vuran qondarma "erməni soyqırımı" məsələsinə nəyə görə Fransada bu qədər önəm verilir? Bizcə, bu sualların cavabı "erməni soyqrımı" amilinin Fransanın Türkiyə siyasətində nə qədər yeri, rolu və təsiri olduğunu göstərir.

Bu sualları cavablandırarkən, eyni zamanda "erməni soyqırımı" amilinin Türkiyə-Fransa münasibətlərində rolu, yeri və təsirinin nə səviyyədə olduğunu göstərmək olar, "erməni soyqırımı" mifinin niyə Fransa da daxil olmaqla böyük güclərin geosiyasi planlarında aktual problemə çevrildiyini öyrənə bilərik. Fransadakı erməni diasporunun formalaşmasına diqqət yetirməliyik, erməni lobbisinin Fransa hökumətinin siyasətinə nə dərəcədə təsir göstərdiyini araşdırmaq lazımdır. Dissertasiya işi yuxarıda göstərilən suallara cavab vermək cəhdidir və bu mənada elmi və siyasi əhəmiyyətə malikdir.

Türkiyənin ciddi və güclü regional gücə çevrilməsinin müasir dünyada bir çox ölkələri narahat etməsi də dissertasiya mövzusunun araşdırılmasına böyük maraq yaradır. Türkiyənin beynəlxalq siyasi əlaqələri təcrübəsinin öyrənilməsi də elmi-siyasi aktuallıq kəsb edir. Elmi cəhətdən əsaslandırılmış, düzgün işıqlandırılmış siyasi təcrübə qüsursuz və hərtərəfli xarici siyasət konsepsiyasının hazırlanması üçün böyük əhəmiyyətə malikdir.

Mövzunun aktuallığı həmçinin XXI əsrdə Türkiyə ilə Fransa arasında siyasi əməkdaşlığın inkişafı üçün mümkün senarilərin irəli sürülməsinin vacibliyi ilə də müəyyən edilir.Türk-fransız siyasi münasibətlərinin ümumi istiqamətləri və inkişaf meyllərinin müəyyənləşdirilməsi onların tarixi kökünə, retrospektivinə nəzər yetirilməsini də tələb edir. Buna görə də işdə tədqiqatın xronoloji çərçivəsi qarşıya qoyulmuş məqsədə uyğun olaraq verilir və onun strukturunu müəyyən edir.

Başqa sözlə, tədqiqat zamanı problemin tarixi kökləri də təhlil edilmişdir. Bu yanaşma, Türkiyə ilə Fransa arasındakı siyasi əlaqələrin xüsusiyyətlərini müəyyənləşdirməyə, qarşılıqlı fəaliyyətlərinin ən vacib sahələrini qabartmağa, mövcud vəziyyəti qiymətləndirməyə və qarşılıqlı siyasi münasibətlərin inkişaf perspektivlərini proqnozlaşdırmağa imkan verir.

Bütün yuxarıda göstərilən amillər, dəlillər və səbəblər Türkiyə ilə Fransa arasındakı siyasi münasibətlərin dərindən və hərtərəfli elmi araşdırmasını aktual edir. Avropa və Asiya arasında əlaqə həlqəsi olan Fransa - Türkiyə siyasi əlaqələrinin araşdırılması Şərq ilə Qərb arasındakı münasibətləri anlamaq baxımından böyük əhəmiyyətə malikdir.

Beləliklə, tədqiqat mövzusu Türkiyə ilə Fransa arasındakı siyasi münasibətlərin bütün aspektlərinin xüsusi politoloji analizinivə təhlil əsasında ikitərəfli əlaqələrin inkişafları üçün elmi qənaət və tövsiyələrin irəli sürülməsini tələb edir. Bu baxımdan, məncə, təqdim olunan dissertasiya işi bu problemin siyasi cəhətdən araşdırılmasına müəyyən bir töhfə ola bilər.

Tədqiqat mövzusunun işlənmə dərəcəsinin təhlili göstərir ki, onun müxtəlif aspektləri Türkiyə və Fransanın, qismən Azərbaycan, Rusiya və bir sıra Qərb ölkələrinin alimləri və politoloqları tərəfindən öyrənilsə də, ümumiyyətlə, bu məsələ ölkəmizdə ilk dəfə bu dissertasiya işində kompleks şəkildə tədqiq edilir.

Ümumiyyətlə, Türkiyə - Fransa siyasi əlaqələrinə həsr olunan tədqiqat işlərini iki qrupa bölmək olar: birinci qrupa türk-fransız siyasi münasibətlərinin tarixi aspektlərini öyrənən, ikinci qrupa isə türk-fransız siyasi münasibətlərinin mövcud vəziyyətini və perspektivlərini tədqiq edən əsərlər aiddir.Türkiyə elmi - siyasi ədəbiyyatından T.Bulud, İ.Ceran, A.S.Çapanoğlu, Er. Serkan, İ.Soysal, X.Yeniayvə digərlərinin əsərlərində türk-fransız münasibətlərinin tarixi - siyasi aspektləri öyrənilmişdir[1]. Türkiyə

[1]Bulut T. Türkiye-Fransa ilişkileri. Ankara, 2014, 386 s.; Ceran İ. XVI Yüzyılın ilk yarısında türk-fransız ilişkileri, Kanuni Sultan Suleyman – İ. François İttifakı. Türkish Studies. İnternational Periodical For the Languages Literature and History of Turkish Volume 9/2, Winter 2014, p.479; Çapanoğlu S., Servante D.2015: Fransa'ya türk göçünün 50'nci yılında Türkiye- Fransa ilişkileri / İktisadi kalkinma

müəlliflərinin əsərlərində Fransanın türklərə yönəlmiş siyasətinin müəyyən edilməsinə, o cümlədən Türkiyənin Aİ-yə üzvlüyü məsələsində Fransanın mövqeyinə və uydurma "erməni soyqırımı" məsələsinin türk-fransız münasibətlərinin xarakterinə necə təsir etməsi məsələsinə xüsusi yer verilmişdir[1].

K. Gürünün[2]dəyərli kitabında öz xalqını "Böyük Ermənistan" xülyasının girovuna çevirən erməni millətçi liderlərinin avantürist siyasəti izlənilir.Burada zəngin arxiv sənədləri əsasında Fransa da daxil olmaqla beynəlxalq kapitalizmin vaxtaşırı öz məqsədləri üçün istifadə etdiyi "erməni məsələsi"nin tarixinin tam mənzərəsi yaradılır. Fransa tarixçiləri, politoloqları, beynəlxalq münasibətlər üzrə mütəxəssisləri və digərləri türk-fransız siyasi münasibətlərinə də diqqət ayrılmışlar[3].

Qeyd edilməlidir ki, fransız müəlliflərinin əsərlərində Türkiyə-Fransa siyasi münasibətlərinin ətraflı və obyektiv təhlili yoxdur. Rusiya tarixşünaslığında Fransanın XX və XXI əsrlərin hüdudlarında Türkiyə siyasətinə həsr olunmuş ayrıca tədqiqat işi yoxdur. Rusiya tədqiqatçılar, bir qayda olaraq, Türkiyənin Aİ-yə qəbulu probleminin

---

vakfı. №129, Haziran 2015, Ankara / http://www.ikv.org.tr/images/files/.pdf; Serkan Er.Türkiye-Fransa ilişkileri (1923-1939). Ankara, 2001. Akademiya Yayınları, 25 s. http://www.academia.edu/1923-1939; Soysal İ. Türk - Fransız siyasal ilişkileri (1921-1984). Belleten, Cilt XVII, Ankara, Ekim, 1983; Yeniay H. Yeni Osmanlı Borcları Tarihi. İstanbul Universitesi Yayınları, İstanbul, 1964, 150 s.

[1]Karluk R.Avrupa Birliği ve Türkiye. İstanbul:Beta Basım A.Ş., 2002, 640 c.; Öniş Z. An awkward partnership: Turkey's relations with the European Union in comparative-historical percpertive Istanbul, 2000. c.13; Akagül D. Association CEE-Turquie: à la recherche d'une nouvelle dynamique//Révue du Marché Commun - Paris : Ed. Techniques et Economiques, Vol. 303.1987, 30, p. 3-13.

[2]ГюрюнК. Армянскоедосье. Переводстурецкого. Баку: Язычы, 1993, 176 с.

[3]Assemblée Nationale Commission des affaires étrangère compte rendu № 19 (Application de l'article 46 du Règlement) Mercredi 10 janvier 2001 (Seance de 9 heures 30) Présidence de M. François Loncle, Président // ОфициальныйсайтНациональнойАссамблеиФранции // www. assemblee-nationale.fr; Terno Y. Emprire ottoman le déclin la chute, l'effacement Editions du Félin, 2005;Veinstein G. Les Ambiguitiés de l'Alliance Franco-Ottoman, Paris 2006; Gnesotto N, Kodmani-Darwish B. Les relations franco-turques. In: Politique étrangère N°1 - 1985 - 50e année pp. 173-185.

müxtəlif mübahisəli məqamlarına, bu məsələdə Fransa ilə Türkiyə arasındakı bəzi ziddiyyətlərə diqqət yetirirlər.

Tarixçi B.M.Potsxveriyanın[1] əsərlərində fransız-türk münasibətlərinə qismən toxunulur. B.M. Potsxveriya "Türkiyə və Kipr problemi" adlı əsərində Kiprdə XIX əsrdən bəri inkişaf edən situasiyanı ətraflı şəkildə təhlil edir və Kipr probleminin Türkiyənin Aİ-yə üzvlüyü yolunda ən vacib əngəl olduğunu müdafiə edir. Bu mövzu üzərində işləmək üçün tədqiqatçı müxtəlif dillərdə (türk, yunan, ingilis) olan çox sayda mənbədən istifadə edir.

Fransanın Türkiyə siyasətindən V. Gurko – Kryajina[2],T.S.Kondratyeva[3], A.Zadoxin[4], Q.Ziqanşina[5], N.V.Borodkin[6] və digərlərinin əsərlərindən qismən də olsa bəhs edilmişdir.

T.S.Kondratyeva "Avropa İttifaqı - Türkiyə: gözlənilməz nəticələri ilə geosiyasi oyun" adlı tədqiqat işində Türkiyənin Aİ-yə üzvlüyü məsələsinin bütün siyasi aspektlərini ətraflı araşdırır. Müəllif Fransanın Türkiyəni Aİ-də görmək "istəmədiyini", bu səbəbdən hər cür yolla üzvlüyün baş verməməsinə israrla çalışdığını bildirir. Öz növbəsində, Türkiyə Aİ-yə üzv olmaq üçün mümkün və mümkün olmayan hər şeyi etdi. Müəllif Türkiyənin həqiqətən Aİ-yə girəcəyi təqdirdə bunun birlik içərisində köklü dəyişikliklərə səbəb ola biləcəyini düşünür.

---

[1]Поцхверия Б.М. Турция и кипрская проблема // Турция в новых геополитических условиях.М., 2004. с. 36-49

[2]Гурко-Кряжин В.: Армянский вопрос / Большая Советская Энциклопедия. 1-е изд, т. 3. М.: Сов. энцикл., 1926, с.437-440

[3] Кондратьева Т. С. Евросоюз - Турция: геополитическая игра с непредсказуемым результатом // Актуальные проблемы Европы.М., 2006. №4. С. 109-144.

[4]Задохин А. Европейский путь Турции // Обозреватель. М., 2006. № 10. с. 79 - 84

[5] Зиганшина Г. Турция: марафон на пути в Европу // Азия и Африка сегодня, 2005, №5, с. 33 - 40.

[6] Бородкина Н.В. Ближневосточная политика Франции в период президентства Ж.Ширака (1995-2007гг.): Автореферат на уч.степ. кан.ист.наук. Ярославль, 24 с.

Türkiyə-Fransa siyasi münasibətlərinin bəzi məsələləri Azərbaycan politoloqlarının, alimlərinin və diplomatlarının əsərlərində işıqlandırılmışdır[1].

E. Abasov öz məqaləsində haqlı olaraq, Fransanı qondarma "erməni soyqırımı" nı tanıdığına görə tənqid edir. Məqalədə vurğulanır ki, Fransanın qondarma "erməni soyqırımı"nı tanıması son illərin ən aktual məsələlərindən birinə çevrildi. Bu fakt erməni lobbisinin bu ölkədə nə qədər güclü olduğuna və bunun Fransanın xarici siyasətinə necə təsir etdiyinə dəlalət edir. Yalnız Fransanın qondarma "erməni soyqırımı"nı tanıması faktı deyil, eyni zamanda bu soyqırımı inkar etdiyi üçün verilən cəzanın müzakirə obyektinə çevrilməsi biz tarixçiləri, ermənilərin bütün saxtakarlıqlarını ifşa edən bütün tədbirləri görməyə sövq etdirməlidir[2].

Ümumiyyətlə, yuxarıda adları göstərilən müəlliflərin hamısı Türkiyə-Fransa siyasi münasibətlərinin yalnız ayrı-ayrı aspektlərinə toxunmuşlar. Beləliklə, qeyd etmək lazımdır ki, Türkiyə-Fransa siyasi münasibətləri tarixşünaslıqda bu vaxta qədər kompleks şəkildə tədqiq edilməmişdir. Tarixşünaslığın qısa icmalı göstərir ki, dissertasiya mövzusu nə Vətən, nə də xarici tarixşünaslıqda xüsusi olaraq araşdırılmamışdır. Eyni zamanda qeyd etmək lazımdır ki, yuxarıda bəhs edilən əsərlərdən toplanan faktiki materialdan tədqiq zamanı hərtərəfli faydalanmışam.

Tədqiqatın mənbəşünaslıq bazası haqqında bir neçə kəlmə qeyd etmək lazımdır. Əsas mənbələrə qanunvericilik və rəsmi sənədlər daxildir. Bunlara Türkiyə ilə Fransa arasında bağlanan

---

[1]Abasov E. Fransa və qondarma erməni soyqırımı // Tarix və onun problemləri, №1, 2014, s. 230-236;"Cəmil Həsənli "erməni soyqırımı" iddiasını darmadağın etdi" – Tarixi faktlar /http://azpolitika.info/?p=112519; "Çexiyadakı Azərbaycan və türk diasporu Fransa parlamentinin qərarına etiraz olaraq aksiya keçirmişlər" / azertag.az/.../Cexiyadakı_Azarbaycan..; Hacıyev S.Müasir Türkiyədə terror. Bakı: 2005, 310 s.; Hacıyev S.Türkiyə - Rusiya münasibətləri və erməni terroru. Bakı: Bakı Universiteti nəşriyyatı, 1998, 244 s.; Sevdimalıyev R. Beynəlxalq erməni terrorizminin formalaşması və inkişafı: tarixi baxış (I hissə) http://1905.az/beyn%C9%99lxalq-erni-terrorizminin-formalasmasi-v%C9%99-inkisafi-tarixi-baxis/

[2]Abasov E. Fransa və qondarma erməni soyqırımı // Tarix və onun problemləri, №1, 2014, c.236

müvafiq qanunvericilik aktları daxildir. Digər bir mənbə qrupu arxiv materialları, Türkiyə və Fransa dövlət xadimlərinin, diplomatların, millət vəkillərinin, beynəlxalq münasibətlər üzrə mütəxəssislərin, politoloqların və digərlərinin məruzələri, nitqləri və çıxışlardır. BMT və Aİ-nin mövzuya aid sənədlərindən də istifadə edilmişdir.

Türkiyə və Fransa dövri mətbuatı da əsas mənbələr sırasındadır. Türkiyə və Fransa mətbuatındn mənbə olaraq geniş istifadə olunmuşdur. Bunlardan aşağıdakıları göstərmək olar: "Hürriyət", "Milliyet", "Cümhuriyyət", "Sabah", "Zaman", «Turkish Daily News» ("Türk Gündəlik Xəbərləri") və s. İstifadə edilmiş fransız mətbuatından "Liberation", "Le Croix", "La Stampa", "Le Figaro", "Le Parisien", "La Tribune", "L'Humanité" və s. qəzet və jurnalları göstərmək olar. Mənbələr arasında hər iki ölkənin Xarici işlər nazirliklərinin və Prezident Administrasiyasının rəsmi internet saytları xüsusi yer tutur. SaytlardaTürkiyə Cümhuriyyəti və Fransa prezidentlərinin, Baş nazirlərinin, mətbuat konfranslarının, çıxışlarının, imzalanmış müqavilələrin, sazişlərin və protokolların mətnləri verilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini XXI əsrin əvvəllərindəki Türkiyə və Fransa arasındakı siyasi əlaqələr, predmetini isə türk-fransız siyasi münasibətlərinin inkişaf dinamikası, ziddiyyətləri, problemləri və perspektivlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Türkiyə və Fransa arasında XXI əsrin əvvəllərindəki siyasi münasibətləri kompleks şəkildə tədqiq etməkdədir.

Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmiş və yerinə yetirilmişdir:

- Osmanlı imperiyası və Fransa arasındakı siyasi əlaqələrin tarixini izləmək;
- müasir mərhələdə Fransanın xarici siyasətinin hədəflərini müəyyən etmək;
- müasir mərhələdə Türkiyənin xarici siyasətinin hədəflərini müəyyən etmək;

- müasir ikitərəfli siyasi münasibətlərə təsir edən amilləri müəyyənləşdirmək, onların normativ-hüquqi bazasını və siyasi - hüquqi aspektlərini təhlil etmək;
- müasir mərhələdə Türkiyə ilə Fransa arasındakı iqtisadi münasibətlərin siyasi aspektlərini nəzərdən keçirmək;
- müasir mərhələdə Türkiyə və Fransa arasındakı siyasi münasibətlərin mahiyyətini, xarakterini və əsas istiqamətlərini araşdırmaq;
- Türkiyənin Avropa İttifaqına üzv olması məsələsində Fransanın mövqeyini təhlil etmək və bu mövqenin Türkiyə və Fransa arasındakı siyasi münasibətlərə təsirini göstərmək;
- qondarma "erməni soyqırımı" məsələsinin Türkiyə ilə Fransa arasındakı siyasi münasibətlərinə təsirini araşdırmaq;
- XX əsrin sonunda erməni silahlı birləşmələri tərəfindən Azərbaycan torpaqlarının işğalı məsələsinə Türkiyə və Fransanın münasibətlərinə dair müqayisəli təhlil aparmaq;
- Türkiyə-Fransa siyasi münasibətlərinin prioritetlərini müəyyənləşdirmək;
- Türkiyə-Fransa siyasi münasibətlərinin inkişaf potensialını müəyyən etmək və perspektivini proqnozlaşdırmaq və s.

**Tədqiqat metodları.** Dissertasiyanın nəzəri əsasını, tədqiqat obyektini bütöv şəkildə, iyerarxik strukturlu sistem kimi nəzərdən keçirməyə imkan verən elmlərarası tədqiqat metodologiyası təşkil edir.

Dissertasiyada sistemli yanaşma metodu ilə yanaşı, ümumi fəlsəfi prinsiplər (konkretlilik, tarixçilik, obyektivlik) daxil olmaqla sistemli–tarixi analiz, müqayisəli analiz, struktur-funksional analiz, təsviri-analitik təhlil metodlarından və siyasi elmlərin digər tədqiqat metodlarından istifadə edilmişdir.

Müxtəlif mənbələrdən alınan məlumatların sistemləşdirilməsi, təhlili və ümumiləşdirilməsi onlardakı məlumatların mahiyyətini və xüsusiyyətlərini aşkar etməyə imkan verir. Müəllif dissertasiya işində Türkiyə və Fransanın xarici siyasi fəaliyyətini inkişafda və dinamikada nəzərdən keçirməyə imkan verən istorizm prinsipinə əməl etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Türkiyə və Fransa arasında tarixi ənənələrə və beynəlxalq hüququn təməl prinsip və normalarına əsaslanan müasir siyasi münasibətlər möhkəm normativ - hüquqi baza üzərində inkişaf etmişdir;

- dövlət başçılarının siyasi iradəsi iki ölkə arasındakı siyasi münasibətlərin tənzimlənməsində mühüm rol oynayır;

- Türkiyə və Fransa arasındakı siyasi münasibətlərin inkişafına qarşılıqlı maraqlar və digər siyasi - iqtisadi amillər təsir göstərir;

- Türkiyə-Fransa siyasi münasibətləri birmənalı deyil, ziddiyyətlidir və əksər hallarda qeyri-ardıcıldır. İkitərəfli münasibətlərin inkişaf meylləri, ziddiyyətlər və problemləri diqqəti cəlb edir: Türkiyənin Aİ-yə daxil olması məsələsində Fransanın mövqeyi; 1915-ci ildə Osmanlı imperiyasında qondarma erməni"soyqırımı" və Fransa tərəfindən "soyqırım" faktının qanunvericilik səviyyəsində tanınması; Türkiyə və Fransanın Yaxın Şərq siyasətləri və bu bölgədəki əsas strategiyaları; Türkiyədə qlobal maraqların türk xarici siyasətində qlobal maraqların əhəmiyyətini artırmaq ideyasına əsaslanan yeni xarici siyasət doktrinasının meydana gəlməsi; kürd məsələsi və Fransanın bu məsələyə münasibəti və s.

- Fransa-Türkiyə münasibətlərində müasir ikitərəfli münasibətlərin dinamikasına təsir göstərən sabit inkişaf olmamışdır. Türk-fransız münasibətləri N.Sarkozinin prezidentliyi dövründə nəzərəçarpacaq dərəcədə pisləşdi;

- F.Hollandın prezidentliyi dövründə Türkiyə-Fransa münasibətləri inkişaf etməyə başladı. Bununla birlikdə, Fransanın əsas məsələlərdəki mövqeyi dəyişməz qaldı.

- Türkiyə-Fransız münasibətlərinin mərkəzində duran məsələ Türkiyənin Aİ-yə qəbulu problemi hesab olunur. E.Makronun Türkiyənin Aİ-yə üzvlüyünə dair siyasəti ciddi şəkildə dəyişməyib. Keçmiş prezidentlər "erməni soyqırımı"nı əngəl kimi şişirtməyə çalışarkən, E.Makron Türkiyə prezidentinin panislamist mövqeyinə istinad edərək Türkiyənin Aİ-yə üzvlüyünə qarşı çıxır. E.Makrona görə, "AB üzvlüyü deyil, strateji tərəfdaşlıq" əldə etmək lazımdır.

Başqa sözlə, Fransanın sabiq prezidentlər kimi, E. Makron da Türkiyənin Aİ-yə üzvlüyünü dəstəkləmir;

- Türkiyə, əvvəllərdə olduğu kimi, E.Makronun prezidentliyi zamanı da Fransa ilə bərabər hüquqlu əməkdaşlıq, qarşılıqlı etimad, beynəlxalq hüquqa hörmət, daxili işlərə qarışmamaq zəminində əməkdaşlıq və ortaqlıq həyata keçirir;

- Fransanın qondarma“erməni soyqırımı ”nı yalnız tanıması faktı deyil, həm də “soyqırımı” inkar etdiyi üçün cəza vermək təşəbbüsü keçmişdə Fransa tərəfindən aparılan anti-müsəlman, antitürk siyasətinin bu gün də mahiyyət etibarı ilə dəyişmədiyini göstərir. “Erməni soyqırımı” məsələsi Fransanın Türkiyəyə qarşı təzyiq və siyasi şantaj vasitəsinə çevrilmiş, ermənifiliya Fransada dövlət siyasəti səviyyəsinə çatmışdır;

- Türkiyə-Fransa münasibətlərində müsbət dəyişikliklər əsasən iqtisadi maraqdan qaynaqlanır, regional ixtilaflar və geosiyasi rəqabət isə neqativ transformasiyanın xarakterik xüsusiyyətləri və səbəbləridir;

- iki ölkə arasındakı münasibətlərin tarixi 500 ildir və bu əlaqələr qorunub saxlanmalıdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya mövzusu indiyə qədər müstəqil araşdırma mövzusu olmamışdır. Tədqiqatın elmi yeniliyi bundan ibarətdir ki, ilk dəfə dissertasiya işi çərçivəsində:

- zəngin tarixi və siyasi faktiki materialların əsasında müasir Türkiyə-Fransa siyasi münasibətləri kompleks şəkildə araşdırılmışdır;
- əvvəl nəşr olunmayan yeni materiallar müəllif tərəfindən fransız və türk dillərindən tərcümə edilərək elmi dövriyyəyə cəlb edilmişdir;
- Türkiyə-Fransa siyasi münasibətlərinin əsas istiqamətlərinin formalaşmasına kompleks yanaşmanın zəruriliyi əsaslandırılmışdır;
- müasir mərhələdə Türkiyə ilə Fransa arasındakı siyasi münasibətlərin məzmunu, xarakteri və əsas istiqamətləri tədqiq edilmişdir;
- Türkiyənin Aİ-yə üzv qəbul edilməsi məsələsində Fransanın mövqeyi faktlarla analiz edilmişdir;
- qondarma "erməni soyqırımı" məsələsinin Türkiyə - Fransa siyasi münasibətlərinə təsiri təhlil edilmişdir;

- müasir mərhələdə Türkiyə - Fransa siyasi münasibətləri elmi cəhətdən dəyərləndirən məntiqi nəticələr irəli sürülmüşdür;
- siyasi münasibətlərin inkişafındakı maneələrin aradan qaldırılması üçün yollar və mexanizmlər tövsiyə olunmuşdur;
- türk-fransız siyasi əlaqələrinin inkişaf perspektivləri təqdim olunur;
- faktiki materiallarla əsaslandırılır ki, qondarma "erməni soyqırımı" məsələsi Fransanın Türkiyəyə qarşı təzyiq və siyasi şantaj vasitəsinə çevrilmiş və ermənifillilik Fransada dövlət siyasəti səviyyəsinə çatmışdır və i.a.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın materiallarından Türkiyənin beynəlxalq münasibətləri və xarici siyasətinə dair bir sıra fənlərin tədrisində, yeni dərsliklərin hazırlanmasında, Türkiyə Cümhuriyyəti və Fransanın xarici siyasətinə tarixinə dair mühazirə kurslarında istifadə edilə bilər. Dissertasiyada əldə edilən nəticələr, qiymətləndirmələr və təkliflər, Türkiyə və Fransa arasındakı siyasi əlaqələri daha dərindən öyrənmək və proqnozlaşdırmaq üçün praktik əhəmiyyətə malikdir.

**Dissertasiya işinin aprobasiyası.**

Dissertasiyanın elmi nəticələri müəllif tərəfindən müxtəlif elmi konfranslarda məruzə və mesaj şəklində təqdim olunur.

Müəllif dissertasiya mövzusuna uyğun Azərbaycanda və xaricdə 15 məqalə dərc etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Slavyan Universiteti.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya giriş, ikisi iki yarımfəsil, üçüncü isə üç yarımfəsil olmaqla üç fəsildən, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 19267 işarə, birinci fəsil – 50397 işarə, ikinci fəsil – 59012 işarə, üçüncü fəsil – 82725 işarə, nəticə - 10774 işarə, istifadə olunmuş ədəbiyyat siyahısı – 24927 işarədən ibarətdir. Dissertasiya işinin ümumi həcmi - 162 səhifə, 248726 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun elmi aktuallığı əsaslandırılır, öyrənilmə səviyyəsi və mənbəşünaslıq bazası təhlil

edilir, məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqatın obyekti və predmeti, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi və elmi-təcrübi əhəmiyyəti göstərilir.

**Birinci fəsil – "Müasir mərhələdə türk-fransız münasibətlərinin siyasi - hüquqi aspektləri"** adlanır və iki yarımfəsildən ibarətdir.

**Birinci yarımfəsil – "Retrotarix Türkiyə və Fransa arasında münasibətlərin formalaşması amili kimi" adlanır.** Bu yarımfəsil qarşılıqlı siyasi münasibətlərin yaranmasının tarixi mərhələlərinə həsr edilmişdir. Belə ki, burada Osmanlı imperiyası ilə Fransa arasındakı siyasi əlaqələrin tarixi izlənilmiş, müasir ikitərəfli siyasi münasibətlərə təsir edən amillər müəyyən edilmiş, Türkiyə və Fransa arasındakı iqtisadi münasibətlərin siyasi aspektləri nəzərdən keçirilmiş; qarşılıqlı əlaqənin xüsusiyyətləri, mahiyyəti, xarakteri və əsas istiqamətləri təhlil olunmuşdur.

Tarixi materialların araşdırılmasından məlum olur ki, Türkiyə-Fransa diplomatik münasibətləri XVI əsrdə qurulmuşdur. Fransa ilə Osmanlı imperiyası arasında imzalanmış kapitulyasiyalar siyasi münasibətlərin qurulmasının başlanğıcı kimi qiymətləndirilməlidir. İkitərəfli münasibətlərin siyasi – hüquqi aktı olan bu kapitulyasiyalar Osmanlı imperiyasının mövcudluğunun sonuna qədər əlaqələrdə baza rolu oynamış və eyni zamanda Osmanlı ilə Fransa arasında inkişaf edən iqtisadi əlaqələrin göstəricisi olmuşdur.

1856-cı ildə imzalanmış Paris sülh müqaviləsi ilə Fransa başda olmaqla Avropa ölkələri Osmanlı imperiyası ərazisində yaşayan xristian əhalinin qəyyumları olaraq müəyyən edildi. Məlum olduğu kimi, bu dövrdə osmanlıların fransızlarla əlaqələri dostluqdan uzaq idi. İkitərəfli münasibətlər 1881-ci ildə Fransanın Osmanlı imperiyasının bir hissəsi olan Tunisi işğal etməsindən sonra daha da pisləşdi. Qeyd etmək lazımdır ki, bu dövrdə osmanlılar İngiltərə ilə inkişaf edən münasibətləri ilə Fransa imperiyasının Osmanlı imperiyası əraziləri hesabına genişlənməsinin qarşını almağa çalışırdılar[1].

---

[1]Ozveren E. "Beykut". Doğu Akdenizde Liman Kentlleri (1800-1914). Tarih Vakfı Yurt Yayınları, İstanbul, 1994, c.92

Türklərlə fransızlar arasında münasibətlərdəki digər bir problem Osmanlı torpaqlarında çox sayda fransız məktəbinin açılması idi. Onlar Osmanlı mülklərində yaransalar da, bu dövlətin qanunlarına tabe olmadıqları üçün gələcəkdə ikitərəfli münasibətlərdə mübahisə predmetinə çevrildilər.

Beləliklə, XIX əsrdə Osmanlı imperiyası ilə Fransa arasında münasibətlər pisləşdi. Və bunun əsasən siyasi və iqtisadi sahələrdə baş verdiyini qeyd edə bilərik. Məhz bu dövrdə gələcək problemlərin təməli qoyuldu. Hər iki tərəfin buraxdığı bir sıra səhvlər və Fransanın müstəmləkəçilik siyasəti ikitərəfli münasibətlərin inkişafına maneə olurdu.

Bununla belə, Fransa XX əsrin əvvəllərində Osmanlı dövlətində bir sıra imtiyazlar sahibi olaraq qədəm qoydu və bu, digər Avropa ölkələri ilə müqayisədə ona üstünlük verirdi. Osmanlı Türkiyəsi XX əsrə zəifləmiş halda daxil oldu. Bütövlükdə imperiya siyasi və iqtisadi gücünü itirdi. İmperiya dağılırdı.

Birinci Dünya Müharibəsinin sonunda Osmanlı imperiyası Almaniya blokunun tərkibində itirən güclər arasında idi. Əksinə, Fransa isə Birinci dünya müharibəsini qaliblərin tərəfində başa vurdu.

Birinci Dünya Müharibəsi başa çatdıqdan sonra 1919-cu ildə San-Remoda Fransa və İngiltərə əvvəllər Osmanlılara məxsus ərazilərin bölünməsi barədə saziş imzaladılar. Ancaq türklərin Sakarya döyüşündə qazandıqları zəfərdən sonra, 1921-ci il oktyabrın 20-də fransızlar Türkiyə ilə Ankara müqaviləsini imzaladı. Bu, Türkiyənin yeni hökuməti ilə imzalanmış tamamilə yeni bir siyasi – hüquqi akt idi. Bu müqavilə Cənub cəbhəsindəki döyüşlərə son verdi. Fransa Ankara müqaviləsi ilə suveren Türkiyə Cümhuriyyətini tanıdı.

Türkiyə ilə Fransa arasında müasir siyasi münasibətlərin siyasi - hüquqi əsasları quruldu. O vaxtdan bəri iki ölkə arasındakı siyasi münasibətlər yeni bir mərhələyə keçdi və bu günə qədər çoxsaylı hadisələrlə doludur.

**“Müasir mərhələdə Türkiyə və Fransa arasında siyasi münasibətlərin siyasi - hüquqi prinsiplərinin və əsas istiqamətlərinin qurulması” adlanan ikinci yarımfəslində** müasir fransız-türk münasibətlərinin normativ-hüquqi bazası və siyasi - hüquqi aspektləri təhlil edilir, ikitərəfli siyasi münasibətlərin meylləri, eləcə də inkişaf istiqamətləri, ziddiyyətləri və problemləri nəzərdən keçirilir. Belə ki, Ankara və Lozanna müqavilələri, 1926-cı il Dostluq və mehriban Qonşuluq haqqında müqavilə, 1939-cu il ikitərəfli müqavilə və s. ölkələr arasındakı ikitərəfli siyasi münasibətlərdə əsas hüquqi aktlarına çevrildilər.

Osmanlı imperiyası dövründən qalan problemləri (Hatayın statusu məsələsi və s.) həll etdikdən sonra II Dünya Müharibəsi başlayana qədər Türkiyə və Fransa arasında ikitərəfli münasibətlərdə problemlər yaşanmadı.

Qeyd etmək lazımdır ki, yuxarıda qeyd edilən problemlərin siyasi- hüquqi həlli Türkiyəni beynəlxalq hüququn və beynəlxalq münasibətlərin subyektinə çevirdi. Fransa ilə bağlanan ikitərəfli müqavilələrlə yanaşı, Millətlər Liqası və digər Sülh Konfransları çərçivəsində imzalanan çoxtərəfli müqavilələr türk-fransız münasibətlərinin gələcəyinə ciddi təsir etdi.

O vaxtdan etibarən, Türkiyə ilə Fransa arasında siyasi münasibətlər bu möhkəm normativ-hüquqi zəmində inkişaf etmiş və əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Bununla yanaşı, ikitərəfli münasibətlərdə dəyişdi. Hər iki ölkənin prezidentlərinin və baş nazirlərinin ikitərəfli əlaqələr formatında fəaliyyətlərinin təhlili göstərir ki, dövlət başçılarının siyasi iradəsi iki ölkə arasındakı münasibətlərin tənzimlənməsində mühüm rol oynayır.

2018-2020-ci illərdə iki ölkə arasında siyasi münasibətlər dərin böhran mərhələsini yaşadı. 2018-2020-ci illərdə siyasi münasibətləri korlayan hansı hadisələr baş verdi? Prezident E.Makronun Türkiyə əleyhinə çıxışları, bəyanatları və onlara prezident R.T.Ərdoğan tərəfindən sərt reaksiya verilməsi, Fransanın Suriya münaqişəsində kürd terrorçularına dəstək verməsi siyasi münasibətləri pozdu. Həmçinin Şərqi Aralıq Dənizində insidenti ilə bağlı, Liviya böhranı ilə bağlı, Azərbaycanın 44 günlük şanlı Vətən (II Qarabağ) müharibəsi zamanı Fransanın Azərbaycan və Türkiyəyə

qarşı əsassız ittihamları ilə bağlı, Türkiyə və Fransa arasında fikir ayrılıqları, siyasi-hərbi ixtilaf və qarşıdurma xarakterli ziddiyyət yarandı.

Belə ki, 2019-cu ildə Londonda NATO-nun üzv olan ölkələrin zirvə sammitində Makron Türkiyəni İD ilə (İslam Dövləti) əlbir olmaqda ittiham etdi. Bundan sonra Fransa və Fransa arasında münasibətlər gərginləşməyə başladı.

Nəhayət, Türkiyəyə qarşı 2021-ci il martın 30-da tətbiq edilməsi nəzərdə tutulan sanksiyalar layihəsi üzərində fəal iş grtdiyi bir vaxtda, 2021-ci ilin yanvarında prezident E.Makronun prezident R.T. Ərdoğana görüş təklifi ilə məktub göndərməsi[1] iki ölkə arasında siyasi münasibətlərdə müsbətə doğru dönüş baş verəcəyindən xəbər verir.

Göründüyü kimi, Fransanın Türkiyə ilə bağlı siyasəti, ilk növbədə, Türkiyənin Avropa İttifaqına qəbul edilməsi məsələsi ilə bağlı münasibətləri nəzərdə tutur və bütün digər məsələlər bu problemə tabe olan məsələ kimi nəzərdən keçirilir. Buna görə də dissertasiyanın ikinci fəsli Fransanın Türkiyənin Aİ-yə üzvlüyü ilə bağlı siyasətinə həsr olunub.

**İkinci fəsil - "Türkiyənin Aİ-yə daxil olması ilə əlaqədar Fransanın siyasəti" adlanır və** iki yarımfəsildən ibarətdir. Burada Türkiyə və Avropa İttifaqı arasında əməkdaşlığın qurulması məsələləri, üzvlüklə bağlı danışıqlar mərhələsində Fransanın siyasəti, fransız hökümətinin və siyasi liderlərinin bu məsələdə antitürk mövqeyi və s. siyasi aspektdən təhlil edilir.

İkinci fəslin **- birinci yarımfəsli "Türkiyə və Avropa İttifaqı arasında əməkdaşlığın formalaşması və Fransanın mövqeyi"** adlanır. Burada qeyd edilir ki, Fransanın Türkiyə siyasəti böyük ölçüdə ikincinin Aİ-yə qəbulu problemi üzərində fokuslanmışdır. Osmanlı imparatorluğunun çökməsindən və Türkiyə Cümhuriyyətinin qurulmasından sonra, Qərblə yaxınlaşma kursu Türkiyədəki modernləşmə ilə sinonim oldu.

---

[1]Macron'dan Erdoğan'a 'İlişkileri düzeltelim' mektubu //https://www.hurriyet.com.tr/gundem/macrondan-erdogana-iliskileri-duzeltelim-mektubu-41716077

Türkiyə özünün siyasi və iqtisadi maraqlarının təminatını tam olaraq Qərb ölkələri ilə əməkdaşlıqda gördü. Türkiyənin xarici siyasətindəki bu istiqamət çox partiyalı bir sistemin formalaşması və transatlantik və Avropa strukturları ilə əlaqələrin qurulması prosesini sürətləndirdi. Türkiyə 1949-cu ildə Avropa Şurasına daxil oldu, 1952-ci ildə NATO-nun üzvü oldu. Eyni dövrdə Türkiyə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) üzv oldu.

Türkiyə 31 iyun 1959-cu ildə Avropa İqtisadi Birliyinə üzv olmaq üçün rəsmi müraciət etdi. 1959-cu il 11 sentyabr tarixində Avropa İqtisadi Birliyi (AİB) Nazirlər Şurasında Türkiyənin təşkilata üzv olmaq üçün müraciətinə baxıldı. AİB əməkdaşlıq müqaviləsini imzalamaq üçün Türkiyə ilə danışıqlara başlamaq haqqında qərar qəbul etdi[1].

Türkiyə ilə AİB arasında danışıqlar üç mərhələdə baş tutdu. Dissertasiyada bütün mərhələlər təhlil edilmiş və nəticələr çıxarılmışdır. Qeyd etmək lazımdır ki, bir sıra AİB-in üzv - dövlətləri danışıqlar prosesinin özünə qarşı yönəlmiş rəsmi və qeyri-rəsmi addımlar atdılar. Qeyd olunduğu kimi, beş bölmə Fransa tərəfindən, üçü Avstriya və Almaniya tərəfindən, səkkizi Avropa Şurasının 2006-cı ilin dekabrında qəbul edilmiş qərarı ilə bloklandı. Digər bölmələrin də qeyri-rəsmi bloklanması mövcuddur. Belə ki, 11 fəsil üzv ölkələr tərəfindən siyasi səbəblərdən Şurada dayandırıldı.

Beləliklə, danışıqlarda olan 35 bölmənin yarısından çoxu AB-nin üzvlərindən ya bir, yaxud da bir nüçəsi tərəfindən bloklanırdı. Danışıqların bloklanmış hissələrinə, Türkiyə ilə AB arasında ortaq fəaliyyətin ən vacib üç sahəsi - xarici əlaqələr, enerji, təhlükəsizlik və müdafiə siyasəti daxildir. Türkiyənin qəbuluna qarşı çıxan avropalı siyasətçilər, əslində Avropa Şurasının “digər namizəd ölkələrə eyni meyarların tətbiq olunmasını” elan edən 1999-cu il Helsinki Zirvəsi qərarını böyük ölçüdə aşındırmış oldular[2].

Dissertasiyadakı bu cür faktların təhlili göstərir ki, Avropa İqtisadi Birliyi, daha sonra Aİ ilə yaxınlaşma xətti Türkiyənin siyasi və iqtisadi inkişafı, modernləşməsi üçün əsas şərtlərdən biri oldu.

---

[1]Karluk R.Avrupa Birliği ve Türkiye. İstanbul:Beta Basım A.Ş., 2002, c.467

[2] Независимая газета. 02.03.2008.

Fransa rəhbərliyi açıq şəkildə Türkiyənin üzvlüyünə qarşı çıxır və Ankaranın "inteqrasiya" yox, "tərəfdaşlıq" təklifini qəbul edir[1].

Bu baxımdan ikinci fəslin ikinci yarımfəslində Türkiyənin Aİ üzvlüyünə qarşı çıxan Fransanın mövqeyi və xarici siyasəti təhlil edilmişdir.

İkinci fəslin **"Fransa və Türkiyənin Aİ-yə qəbulunun əsas problemləri" adlı ikinci yarımfəslində** müəllif Türkiyənin Aİ-yə qəbulu prosesinin əsas arqumentlərini və xüsusiyyətlərini açıqlayır, Fransa və Almaniya kimi  lider ölkələrin mövqeyini təhlil edir. Fransaya xüsusi diqqət yetirilir. Birlik daxilində Türkiyənin Aİ-yə üzvlüyünə verilən dəstəyin azalması ilə fransız siyasi xadimlərin anti-türk çıxışları arasında açıq bir bağlantı olduğu göstərilir.

J.Şirak dövründə Fransa Türkiyəyə çox loyal münasibətdə idi, N.Sarkozi isə münasibətləri mənfiyə doğru kökündən dəyişdirdi. O, Türkiyənin Aİ-yə üzv olmasının ən qızğın əleyhdarlarından biri idi. N. Sarkozi dəfələrlə ifadə etdi ki, Türkiyə Fransa və Avropa İttifaqının xüsusi, imtiyazlı tərəfdaşı olaraq qalır, lakin bu, Türkiyənin Aİ-yə üzv ola biləcəyi anlamına gəlməməlidir. O hesab edirdi ki, Türkiyənin Aİ-nin tamhüquqlu üzvü olması Avropa dəyərləri üçün təhlükə yaradır və Aİ-nin maraqlarına uyğun deyildir.

N. Sarkozidən fərqli olaraq Prezident F. Holland Türkiyənin Avropa İttifaqına üzv olması məsələsində daha yumşaq və daha mülayim bir siyasət yürütdü.

Aİ ilə Türkiyə arasındakı münasibətlər 2016-cı ilin yayında ölkədə baş verən çevriliş cəhdindən sonra pisləşdi. Aİ Ankaranın kütləvi həbslərini və digər tədbirlərini tənqid etdi və Türkiyənin Avropa İttifaqına daxil olması barədə danışıqlar qovluğunun yeni fəsillərinin açılması üçün hazırlıqları dayandırdı.

2016-cı il dekabrın 1-də Prezident F.Holland, Beşinci Respublika tarixində ilk dəfə ikinci dövr üçün namizədliyini vermədiyini rəsmən elan etdi və namizədliyini seçkilərdən geri çəkdi.

---

[1] Монбриаль де Т.Турецкий вопрос. «Россия в глобальной политике». Москва, 2004, т.2, №4. Июль-август, www.globalaffaires.runhttp://www.globalaffairs.ru/number/n_3541

2017-ci il mayın 14-ü tarixində E.Makron 66,10% səslə Fransa Respublikasının prezidenti oldu. E.Makrona görə, Türkiyə “vacib tərəfdaş” (“essential partner”) kimi qiymətləndirildi. Eyni zamanda, Almaniya kansleri A.Merkelin Türkiyə ilə danışıqların dayandırılması ilə bağlı mövqeyini bölüşmür. Bununla birlikdə, E.Makron Türkiyənin Avropa dəyərlərinə qayıtmalı olduğuna inanır. Eyni zamanda E.Makron, A.Merkeldən fərqli olaraq, Türkiyəyə qarşı daha praqmatik mövqe göstərir.

**Üçüncü fəsil “Türkiyə-Fransa münasibətlərində“erməni məsələsi”** adlanır və üç yarımfəslindən ibarətdir.

Üçüncü fəslin **“Fransanın “erməni məsələsi”nin meydana çıxmasında rolu” adlanan birinci yarımfəslində** “Şərq məsələsi” nin tərkib hissəsi olan “erməni məsələsi”nin mahiyyəti açılır və ortaya çıxmasının səbəbləri və şərtləri müəyyənləşdirilir. Fransanın “erməni məsələsi”nin ortaya çıxmasında rolunun tarixi - siyasi kökləri, “erməni soyqırımı” mifinin niyə Fransa da daxil olmaqla böyük güclərin geosiyasi planlarında aktual problemə çevrildiyi açıqlanır.

Dissertasiyada sadalanan amillər əsasında gəldiyimiz ilk nəticələr bundan ibarətdir ki, Sultan Süleyman Qanuni dövründə Kapitulyasiya sazişinə nail olan Fransa Osmanlı imperiyasında imtiyazlı bir mövqe tutmuşdur. Osmanlı imperiyasında yenilənmə və avropalaşmaya dair baxışların, Qərbin norma və dəyərlərinin fransız prizmasından tətbiq edilməsi Fransanın ikitərəfli münasibətlərdə əhəmiyyətini artırdı. Siyasi təhlillər göstərir ki, Fransa dövlət adamlarının göstərdikləri ikiüzlü dostluq münasibətləri Fransa dövlətinin Türkiyə ilə əlaqədr əsl niyyətlərini ört-basdır edə bilməmişdir. Beləliklə, Fransa ermənilərə, separatçılara, iğtişaşçılara və terrorçulara “qollarını açdı”. Bu üsyançılar Fransada təşkil olunmaq üçün əlverişli şərait tapdılar. Fransa hökuməti öz ərazilərində yaradılan erməni komitələrinin: Qnçak (1887) və Daşnaksütyun partiyasının (1890) terror fəaliyyətini stimullaşdırdı və onları 1880 - 1920-ci illərdə qiyama təhrik etdi. Xüsusilə, 1900-cü ildən sonra Osmanlı dövlətindəki fransız konsulları və dini liderlər daim erməniləri üsyana çağırdılar və onların qiyamçı və terrorçu hərəkətlərini dəstəklədilər. Fransada ermənilərin Daşnaksütyun və

ASALA kimi siyasi-terror təşkilatları yaradıldı və bu səbəbdən bu ölkədə beynəlxalq erməni terrorizmi intişar tapdı.

Üçüncü fəslin **“Türkiyə-Fransa münasibətlərində “erməni soyqırımı amili” adlanan ikinci yarımfəslində** bu problemlə əlaqədar arqument və faktlar təhlil edilir. Bu məsələ haqqında dissertasiyada qeyd edilənləri yekunlaşdıraraq deyə bilərik ki, tarixən “erməni məsələsi” (indiki “erməni soyqırımı”) Fransanın daxili və xarici siyasətinin bir alətinə çevrilmişdir: ölkə daxilində yarım milyonluq erməni icmasının səslərini qazanmağa, xarici siyasi arenada - Türkiyənin Aİ-yə girməsi yolunda növbəti baryer yaratmağa çalışırlar.

“Erməni soyqırımı” Fransanın Türkiyəyə qarşı təzyiq və siyasi şantaj vasitəsinə çevrilmişdir. Bu isə Türkiyə-Fransa münasibətlərinə ciddi zərbə vurmuş, bütövlükdə dünyada sülh və əmin-amanlığın rəhni olan sivilizasiyalararası və mədəniyyətlərarası əməkdaşlığa mənfi təsir göstərmişdir. Qondarma “erməni soyqırımı” nı inkar etmək cəzası ayrı-seçkilik, irqçilik xarakteri daşıyır, söz və düşüncə azadlığının təməlini zədələyir. Avropa demokratiyasının beşiyi, ictimai-siyasi həyata bərabərlik, qardaşlıq və ədalət prinsiplərini gətirən Fransada “xristian təəsübkeşliyi”nə, islamofobiyaya, ksenofobiyaya, ölkədə diaspor və milli azlıqlar arasında etnik-dini mənsubiyyətə görə ayrı-seçkiliyə son qoymalı, erməni lobbisinin təsirindən qurtulmalı, taleyini təcavüzkarlıq və uydurmalar üzərində qurmuş bir dövlətin yanında olmamalıdır. Yoxsa Fransa getdikcə öz nüfuzunu və etimadını itirməkdə davam edəcək və bu halda Türkiyə-Fransa münasibətlərinin inkişaf perspektivini gözləməyə dəyməz.

Siyasi təhlillər göstərir ki, qondarma “erməni soyqırımı” məsələsində Türkiyə və Azərbaycan ortaq mövqedən çıxış edirlər. Uydurma soyqırıma görə qanunun Fransa parlamentində qəbul edilməsi Azərbaycanda narazılığa səbəb oldu.

Beləliklə, Konstitusiya Məhkəməsinin rəddindən sonra Türkiyə ilə Fransa arasında münasibətlər bərpa edildi.

Üçüncü fəslin **üçüncü yarımfəslində “Türkiyə-Fransa münasibətləri fonunda Ermənistanın Azərbaycana qarşı təcavüzü və Dağlıq Qarabağ münaqişəsi”** təhlil edilir, Fransa və Türkiyənin Cənubi Qafqaz siyasətlərinin əsas konturları, Ermənistan-

Azərbaycan münaqişəsinin bu iki dövlətin münasibətlərinə təsiri məsələlərinə diqqət yönəldilir. Belə ki,Cənubi Qafqaz Türkiyənin regional siyasətinin prioritetlərindən biridir. Region, həmçinin Fransanın geosiyasi maraqları üçün mühüm yer tutur. 1993-cü ildə Türkiyə Ermənistan ordusunun işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmasına qədər Ermənistanla dövlət sərhədlərini bağladı. Fransa isə Ermənistanın regiondakı strateji tərəfdaşı və himayədarıdır. Eyni zamanda, ticarət-iqtisadi və enerji sahələrində Azərbaycanla geniş və dərin əlaqələri vardır. Öz xarici siyasətində "bir millət-iki dövlət" prinsipini rəhbər tutan Azərbaycan da Fransa ilə iqtisadi-ticarət və enerji sahəsində əlaqələrin inkişaf etdirilməsində maraqlı olmuşdur.

Azərbaycandan fərqli olaraq, Ermənistan Fransanı Azərbaycan və Türkiyə ilə qarşıdurmaya təhrik etmiş və daim onların arasında münasibətlərin pisləşməsinə çalışmışdır.

2016-cı ildə Dağlıq Qarabağ problemi qızğın fazaya keçəndən sonra münaqişə Türkiyə, Ermənistan, Azərbaycan və Fransa arasındakı münasibətlərə daha ciddi təsir göstərməyə başladı. Əlaqələrdəki gərginlik 27 sentyabr 2020-ci ildə başlayan 44 gün davam edən Vətən müharibəsi zamanı kuliminasiya nöqtəsinə çatdı.

44 günlük müharibə zamanı Prezident E.Makron ciddi təxribatçı siyasət yürüdərək, Avropa İttifaqının (Aİ) himayəsi altında regiona hərbi müdaxilənin zəruriliyi ilə bağlı bəyanat verərək, digər üzv ölkələri prosesə cəlb etməyə çalışdı. Bütün bunların fonunda beynəlxalq mətbuatda üzə çıxdı ki, Fransa Ermənistana yüksək texnologiyalı silah ötürür, xüsusilə tərəflər arasında barışıq zamanı Ermənistana fəal dəstək verir.

Fransa Minsk Qrupunun həmsədri olduğu üçün neytral olmalıdır. Lakin Fransa sentyabrın 27- dən müharibənin sonuna kimi ikili standarta əsaslanan siyasətini daha qabarıq şəkildə ifadə edib, vasitəçiliyə uyğun addımlar atmayıb. Prezident Makronun hər hansı sübut olmadan Türkiyə üzərindən Azərbaycana kənardan ermənilərə qarşı mübarizə aparmaq üçün 300 yaraqlının Suriyadan gətirilməsinə dair bəyanatları, həmçinin Fransanın xarici işlər naziri Jan-İv Le Drianın II Qarabağ müharibəsində Türkiyənin hərbi iştirakı ilə bağlı bəyanatları Azərbaycan və Türkiyə tərəfindən rədd edildi. İndiyədək

ATƏT-in Minsk Qrupunun həmsədri kimi öz üzərinə götürdüyü öhdəliklərə biganə yanaşan Fransa hökuməti Dağlıq Qarabağdakı vəziyyətlə bağlı qeyri-adekvat addımlar atdı.

Belə qənaətə gəlmək olar ki, Fransanın Qarabağ məsələsində təxribatçı siyasətinin daha bir səbəbi rəsmi Parisin Türkiyənin Cənubi Qafqazdakı hərbi-siyasi iştirakından narahat olmasıdır.

25 noyabr 2020-ci il tarixində Fransa Senatında keçirilən iclasda hökumət tərəfindən "Dağlıq Qarabağ respublikası" nın tanınması və hökumətdən ermənilərə yardım göstərilməsini tələb etmək nəzərdə tutulmuşdur[1].

Fransa hökumətini Dağlıq Qarabağın müstəqilliyini tanımağa çağıran Fransa Senatının qərarına Azərbaycan və Türkiyə kəskin reaksiya verdilər.

Araşdırmalar göstərir ki, Fransa müharibənin başlandığı ilk gündən ermənipərəst mövqe tutdu və Azərbaycanı müdafiə edən Türkiyə ilə qarşıdurmaya getdi.

Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olar ki, güc mərkəzi kimi Fransa Türkiyənin regionda iştirakını təmin etmir, Türkiyənin Azərbaycana dəstəyi də qane etmir. Buna görə də Fransa ABŞ və Rusiya ilə birlikdə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində öz inhisarını saxlamaq istəyir. Münaqişənin sülh yolu ilə həlli Fransanın marağında deyil. Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxması və Qarabağda Rusiya sülhməramlılarının yerləşdirilməsi Fransanı xüsusilə narahat edir. Ancaq Azərbaycan, Rusiya və Türkiyə artıq Fransanı çıxılmaz vəziyyətə salıblar. Fransa Azərbaycana təsir imkanlarını böyük dərəcədə itirmişdir. Bu da Fransa üçün ağır geostrateji itkidir.

Bundan başqa, 2021-ci ilin birinci yarısında Fransa ilə Türkiyə arasında yüksək səviyyədə dialoqun aparılması hər iki tərəfin əməkdaşlıq üçün ciddi potensiala malik olduğunu göstərir və bu, ümid yaradır ki, bu əməkdaşlıq Avropadan Qafqaz, Yaxın Şərq və Afrikaya qədər sülh və sabitliyə əhəmiyyətli töhfə verə bilər.

---

[1]Fransa-Türkiye ilişkilerinde Dağlık Karabağ gerginliği// https://www.aa.com.tr/tr/analiz/fransa-turkiye-iliskilerinde-daglik-karabag-gerginligi/2061558

**Nəticədə** tədqiqata yekun vurularaq, əldə olunmuş əsas nəticələr sistemləşdirilmiş və ümumiləşdirilmiş, onların əsasında əsərin ən vacib elmi və nəzəri müddəaları təqdim olunur, nəzəri və praktik mahiyyətli tövsiyələr formalaşdırılır. Beləliklə, siyasi problemlərə baxmayaraq, Türkiyə ilə Fransa arasındakı münasibətlərin dinamizmi ikitərəfli münasibətlərin inkişafı və aktivləşməsində müsbət istiqamət kimi görülür. Son illərdə beynəlxalq problemlərə ortaq bir yanaşma nümayiş etdirərkən Fransa və Türkiyə hər iki ölkəyə fayda gətirəcək dostluq əlaqələrini gücləndirməyə davam etdirirlər.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı dərc edilmiş elmi işlərində öz əksini tapmışdır:**

1. Azərbaycan-Türkiyə münasibətlərində yeni mərhələ. Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş III Beynəlxalq elmi konfransın materialları. Bakı, 2012, s.144-146
2. Azərbaycan-Fransa münasibətlərində Heydər Əliyevin rolu.Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş IV Beynəlxalq elmi konfransın materialları. Bakı, 2013,s.145-147
3. Франция и Турция в Евросоюзе. Azərbaycan İnşaat və Memarlıq Universiteti.Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransının materialları Bakı, 2013, s.70-71
4. Franco-Turkish cultural relations. The First İnternational Conference on Eurasian scientific development “East West” Association for Advanced Studies and Higher Education GmbH, Vienna, 2014, p.237-239
5. Азербайджанская диаспора во Франции как факторукрепления азербайджано-французских отношений. Azərbaycan şünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları Bakı, 2014, s.170-173
6. Азербайджано-Турецкие культурные связи. Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər

Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları
Bakı, 2015, s.248-250
7. History of relations between France and the Ottoman Empire. The Seventh International Conference on Eurasian scientific development Vienna, 2015, p.136-138
8. European Union foreign policy of France. The Sixth International Congress on Social Sciences and Humanities Vienna, 2015, p.93-95
9. Fransız-Türk kapitulyasiyaları və Fransanın Erməni Məsələsinin meydana çıxmasında rolu. (Tarixi-Siyasi Təhlil) Tarix və onun problemləri. Bakı Dövlət Üniversiteti Bakı, 2016, s.103-108
10. «Геноцида Армян» в Турецко-Французских отношениях. AMEA. Tarix İnstitutunun Elmi əsərləri (61-cild.) Bakı, 2016, s.108-119
11. From the history of Turkish-French relations. International conference Science and society-Methods and problems of practical application Canada,2018, p.57-63
12. Political and legal relations between Turkey and France, at the present stage.The European Journal of Humanities and Social Sciences Vienna, 2018, № 3,p.65-73
13. Türkiyə-Fransa siyasi əlaqələrinə erməni amilin təsiri.Geostrategiya № 01(49) yanvar-fevral 2019 www.strategiya.az Aylıq ictimai-siyasi, elmi populyar jurnal,s.68-72
14. Тенденции развития и проблемы в турецко-французских отношениях. Geostrategiya № 02 (50) mart-aprel 2019 www.strategiya.az Aylıq ictimai-siyasi, elmi populyar jurnal , s.41-45
15. France-Turkey relations during e.macrons presidency. National pedagogical draqmanov university.Academy of Sciences of Ukraine. Publishing House Hileya. Hileya scientific bulletin. Volume 147 (№ 8) Part 1, Historical sciences Kyiv-2019, p.34-37

Dissertasiyanın müdafiəsi **29 iyun 2021-ci il** tarixində **saat 14:00-da** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri., Lermontov küç., 74

Dissertasiyə ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.
Avtoreferat **27 may 2021-ci il** tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.05.2021
Kağızın formatı: A5
Həcm:  45510
Tiraj: 30 nüsxə.